# Çağdaş Azərbaycan poeziyasından seçmələr

## ÇƏMƏNLİM



*Ümidim söykənib zümrüd düzünə,*
*O mənim arxamda duran dağımdır.*
*Sənin torpağını sıxıb gözümə,*
*Diz çöküb öpməyim ucalmağımdır.*

*Yüz il qucağından uzaqda gəzsəm,*
*Xəyalım yenə də səmanda üzər.*
*Sənə ürəyimin paytaxtı desəm,*
*Nə Təbriz inciyər, nə Bakım küsər.*

*Tutyadan əzizmiş bir dadım duzun,*
*Acı yovşanın da şirin-şəkərmiş.*
*Əlimi qanadıb didən kol-kosun,*
*Adi çör-çöpün də qançəkərimmiş.*

*Umursan adına ad gətirərəm,*
*Gözətçi balanam qapından ötrü.*
*Hərdən şəhərlərdə bezib titrərəm,*
*Kövrək qocaların gapından ötrü.*

*Həm uman yerimsən, həm güman yerim,*
*Qadanı, bəlanı alasıyam mən.*
*Haçansa ömürlük qoynuna girib,*
*Çəmənin, çıçəyin olasıyam mən.*

*Şahmar ƏKBƏRZADƏ*

## ANAMDAN AYRILARKƏN



*Ayrılıq yetişdi bizə yenidən,*
*Bir həsrət dumanı alıb könlümü.*
*Anama baxıram pəncərədən mən,*
*Durub kövrəkliyin heykəli kimi.*

*Avtobus tərpənir, çatmırmı gücü?*
*Nə yaman hay salıb, haray qoparıb.*
*Məni aparmağa nə var, sürücü,*
*Fikrimi, dərdimi anam aparıb.*

*Ürəyim kədərlə dolmasın deyə,*
*Bir az gülümsədi ayrılan zaman.*
*Yol uzaq, bir xata olmasın deyə,*
*Anam istərdi ki, sürücü oğlan*
*Onun gözləriylə baxa yollara,*
*Mülayim adamlar çıxa yollara...*

*Təkərlər fırlanır, uzaqlaşırıq,*
*Neçə düz keçirik, təpə aşırıq...*
*Fikrimdən gör nələr ötüşür bu dəm,*
*Qovaqlar anamdır, elə bilirəm.*
*Hər addım başında çıxaraq yola,*
*Arxamca əl edir: - Uğurlar ola!*

*Avtobus dayanır bir yol başında,*
*Biletlər yoxlanır yenə də bir-bir.*
*Bir kimsə bilmir ki, bu gün maşında*
*Bir ana ürəyi biletsiz gedir.*

*Bahadur FƏRMAN*

***

## DANIŞIR



*Elə bil, dilotu yeyibdi dilim,*
*Ağlıma gələni deyir- danışır...*
*Gözüm həsrətimin yataq yeridi,*
*Ürəyim dinəndə şeir danışır.*
*Birini də deyim, sən eşit, qadam,*
*Bəzən ağrıdan da məst olur adam.*
*Kefi saz olanda, süst olur adam,*
*Dərdi güc gələndə, əyir... danışır.*
*Bir az kövrəyi var, bir az bərki var,*
*Çoxunun Allaha çatan ərki var.*
*Şair dedikləri adamlar ki, var,-*
*Başı daşdan-daşa dəyir, danışır...*
*Ürək pörşələdir, ciyər közlədir,*
*Bəxti ləngər verir, tale gözlədir,*
*Xalx kəmin-kəsirin elə gizlədir...*
*Əlövsət yarasın öyür, danışır...*

*Əlövsət SALDAŞ*

## Sal əlini aşağı...



*Sal əlini aşağı,*
*bir də qoynuna qoyma.*
*Keçmiş günahlarını,*
*mənim boynuma qoyma.*

*...Ömrünün astarından*
*üzü nə qədər çıxıb.*
*günlərinin qarası*
*üzünə qədər çıxıb.*

*Bax səni gətirmişəm,*
*di, dur, özünü tanı.*
*Bəs əlimdə tutduğum*
*şəkildəki qız hanı?..*

*...İndi o qız yoxdusa,*
*qadın olmusan demək.*
*Eh.. QADIN olmusansa,*
*yadın olmusan demək.*

*...Sal əlini aşağı,*
*bir də qoynuna qoyma.*
*Keçmiş günahlarını*
*mənim boynuma qoyma.*

*Ruslan Dost ƏLİ*



## Neçə dəfə şeir yazdın?

*– Neçə dəfə üşümüsən?*
*– Qar dəfə!*
*– Neçə dəfə isinmisən?*
*– Qor dəfə!*
*Qarında da, qorunda da*
*Əlim yanıb hər dəfə.*
*– Neçə dəfə pirə getdin?*
*– Şər dəfə!*
*– Neçə dəfə şərdən çıxdın?*
*– Pir dəfə!*
*Gen günümdə pirə gedim*
*Heç olmasa, bir dəfə...*
*– Neçə dəfə çayda batdın?*
*– Kür dəfə!*
*– Neçə dəfə xilas oldun?*
*– Tir dəfə!*
*– Neçə dəfə balıq oldun?*
*– Tor dəfə.*
*– Neçə dəfə uduzmusan?*
*– Zor dəfə!*
*– Neçə dəfə cəhd elədin?*
*– Zər dəfə!*
*Yüz yaxşı iş*
*Qurban getdi bir səhvə...*
*Mən dünyanın mərkəziyəm,*
*Hara getsəm er dəfə!*
*Dolanmışam yer dəfə,*
*– Dünya düşür sümüyünə?*
*– Vur dəfə...*
*Şair oldum şeir dəfə...*
*– Neçə dəfə şeir yazdın?*
*– ...*

*Xəqani HƏBİBOĞLU*

Səhifəni hazırladı:
Əli NƏCƏFXANLI
XQ